# M Ü N D Ə R İ C A T

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciəti........................................................... 3
Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu.......................... 6
Ali Məhkəmədə 2011-ci ildə baxılan işlər haqqında ümumi məlumat.................................... 9
Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda icraat......................................... 11
Ali Məhkəmənin məhkəmə kollegiyalarında 2011-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat: ....................................................................................... 12
Cinayət kollegiyası.................................................................................................................... 12
Hərbi kollegiya.......................................................................................................................... 15
Mülki kollegiya.......................................................................................................................... 18
İnzibati - İqtisadi kollegiya......................................................................................................... 21
Ali Məhkəmənin Plenumu.......................................................................................................... 24
Ali Məhkəmənin Aparatı və İşlər idarəsi................................................................................... 27
Ali Məhkəmənin 2011-ci ildə beynəlxalq əlaqələri................................................................... 32
Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsi sədrinin Azərbaycana işgüzar səfəri....... 34
Ali Məhkəmənin İnternet səhifəsi.............................................................................................. 40
Ali Məhkəmənin bülleteni.......................................................................................................... 42
Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi.................................................................. 43
Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası…………………………………........................................................................ 43

*Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə*

# *M Ü R A C İ Ə T İ*




Hörmətli xanımlar və cənablar!

Növbəti ənənəvi görüşümüzdə Sizləri salamlamaqdan məmnunam.

Əvvəlcə qeyd edim ki, yola saldığımız 2012-ci il xalqımızın həyatında və dövlətçilik tariximizdə bir sıra əlamətdar hadisələrlə yaddaşlara həkk olundu. Ötən il dünyanın 155 dövlətinin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının üzvü seçilən Azərbaycan may ayında bu mötəbər qurumun iclasına sədrliyini həyata keçirdi, Trans-Anadolu Qaz Kəmərinə (TANAR) həyat vəsiqəsi verdi, iqtisadiyyatımızın rəqabətədavamlılığına görə dünya miqyasında 46-cı, MDB məkanında birinci yerə çıxmasını təmin etdi. Respublika üzrə ümumi daxili məhsul 2,2 faiz, pul gəlirləri 13,8 faiz artdı, işsizliyin səviyyəsi 5,2 faiz, yoxsulluğun səviyyəsi 7,6 faiz azaldı. Bütün bunlar 2012-ci ildə ölkəmizin tarixi nailiyyətləridir.

Ötən ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məhkəmə sistemi ilə bağlı Sərəncamlarının icrası və Ali Məhkəmənin fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Ədalət mühakiməsinin yüksək səviyyədə həyata keçirilməsi üçün ən müasir standartlara uyğun şərait yaradılmış, Ali Məhkəmənin fəaliyyətinin hüquqi və informasiya təminatı gücləndirilmiş, Aparatda yeni texnologiyalar tətbiq edilmiş, hakimlərin və məhkəmə aparatı işçilərinin sosial təminatı yaxşılaşdırılmış, maddi-texniki baza

möhkəmləndirilmişdir. Eyni zamanda əvvəlki illərlə müqayisədə 2012-ci il ərzində vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin səviyyəsi yüksəlmişdir. Respublikamızın bir sıra rayonlarında yeni məhkəmə binaları tikilib istifadəyə verilmişdir.

Bildiyiniz kimi, Azərbaycan Respublikası İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulduğundan Avropa Məhkəməsinin presedent hüququ bizim hüquq sistemimiz üçün mühüm əhəmiyyət kəsb edir. Dövlətin Avropa Məhkəməsinin yurisdiksiyasını tanımasından ilk növbədə Azərbaycan vətəndaşları faydalanmaqdadırlar. Vətəndaşlar İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə çıxış əldə etmiş, məhkəmə və hüquq-mühafizə orqanlarının iş fəaliyyətinə olan tələblər daha da yüksəlmişdir. Bu baxımdan ədalət mühakiməsini həyata keçirən hakimlərin beynəlxalq hüquq normalarını, insan hüquqları sahəsində beynəlxalq standartları, onların tətbiqi təcrübəsini mənimsəmələri önəmli olduğundan Ali Məhkəmədə keçirilən seminarlarda beynəlxalq hüquqi aktların, xüsusən də "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəalarının, Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi davam etdirilmişdir. Hakimlərin və dəvət olunmuş beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə "dəyirmi masa"lar keçirilmiş, Avropa dövlətləri məhkəmələrinin təcrübəsinin öyrənilməsinə kömək edən xarici dövlətlərə tanışlıq səfərləri təşkil edilmişdir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi, onları gözləmək və qorumaq isə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Biz daim çalışırıq ki, Məhkəmə hakimiyyəti orqanlarında ədalət mühakiməsinin həyata keçirilməsi səviyyəsi elə qurulsun ki, məhkəmə cəmiyyətin şüurunda dövlət iradəsinin ifadəsi kimi məcburiyyət və güc orqanı deyil, cəmiyyət üzvlərinin maraqlarını ifadə edən, vətəndaşların qanun icraçılarının özbaşınalığından müdafiəsini təmin etməyə tam cavab verə bilən orqan kimi qəbul olunsun. Bunun üçün ədalət mühakiməsinin aparıcıları olan hakimlər tərəfindən qəbul edilmiş bütün qərarlar ədalətli olmalıdır. Bu, bizim əsas prinsipimizdir.

Məhkəmə hakimiyyətinə inamın yaranmasının bir cəhətini də məhkəmə proseslərinin aşkarlığı təşkil edir. İctimaiyyətdə Ali Məhkəmənin fəaliyyəti haqqında şəffaf və dolğun məlumatların olmasını təmin etmək məqsədi ilə internet səhifələrində daim yeniləşdirilən saytımız yerləşdirilmişdir. Həmin saytda Ali Məhkəmənin Plenumu və müvafiq kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar və digər məlumatlar verilir.

Nəzərinizə çatdırım ki, Ali Məhkəmənin bütün kollegiyalarında - mülki, inzibati-iqtisadi, cinayət və hərbi kollegiyalarında 2012-ci ildə baxılmış işlər 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 20,5 faiz artmışdır. Qeyd edək ki, ailə, əmək, bank krediti ilə bağlı baxılan işlərin sayı daha çox olmuşdur.

Baxılan işlərin sayının artmasına baxmayaraq ləğv olunan məhkəmə qərarlarının sayı azalmışdır. Bu isə aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilən qərarların keyfiyyətinin əvvəlki illərə nisbətən yüksək olmasını göstərir.

Ali Məhkəmənin Plenumunun 2012-ci ildə 5 iclası keçirilmiş, 14 qərar çıxarılmışdır.

2012- ci ildə Ali Məhkəmədə vətəndaşların ərizə və şikayətlərinə, digər müraciətlərinə baxılmasına, onlara hüquqi cəhətdən əsaslı və düzgün cavab verilməsinə xüsusi diqqət verilmişdir.

Hörmətli jurnalistlər!

Sizi bizimlə daha sıx əməkdaşlığa dəvət edirəm. Hər birinizə can sağlığı və yaradıcılıq uğurları arzulayıram.

**Hörmətlə,**

**Ramiz Rzayev**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri**

## Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid olan mülki (o cümlədən inzibati və iqtisadi mübahisələrə dair), cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır; o kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir; məhkəmələrin praktikasına aid məslələr üzrə izahlar verir.

Ali Məhkəmə Azərbaycan Respublikasının Bakı şəhərində təşkil edilmişdir və onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Ali Məhkəmə Plenumdan və dörd məhkəmə kollegiyasından ibarətdir.

"Məhkəmələr və Hakimlər haqqında" Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununa əsasən Ali Məhkəmənin "mülki işlər üzrə, iqtisadi nübahisələrə dair işlər üzrə, cinayət işləri və hərbi məhkəmələrin işləri üzrə kollegiyalarının" adları dəyişdirilərək müvafiq surətdə "mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya" adlandırılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyasının tərkibinin təşkili barədə" 8 oktyabr 2010-cu il tarixli qərarına əsasən məhkəmə kollegiyalarında işlərə baxılması üçün hər biri üç hakimdən ibarət olan məhkəmə tərkibləri yaranmışdır. Həmin qərara uyğun olaraq:

**Mülki kollegiya** - kollegiya sədrindən və on üç nəfər hakimdən ibarət beş məhkəmə tərkibi,

**İnzibati-iqtisadi kollegiya** - kollegiya sədrindən və altı nəfər hakimdən ibarət iki məhkəmə tərkibi,

**Cinayət kollegiyası** - kollegiya sədrindən və altı hakimdən ibarət iki məhkəmə tərkibi,

**Hərbi kollegiya** - kollegiya sədrindən və üç hakimdən ibarət bir məhkəmə tərkibi.

Ali Məhkəmənin Plenumuna onun bütün hakimləri daxildir.

Ali Məhkəmənin Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətli sayılır.

Plenum baxılan məsələlər üzrə qərar qəbul edir.

Ali Məhkəmənin Plenumunun qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul edilir. Plenumun üzvləri məhkəmə işləri üzrə səsvermədə bitərəf qala bilməzlər.

Məhkumun vəziyyətini ağırlaşdıran əsaslara görə məhkəmə qərarları, bəraət hökmü, bəraətverici əsaslarla cinayət işinin icraatına xitam verilməsi haqqında məhkəmə qərarları səsvermədə iştirak edən Plenum üzvlərinin üçdə iki səs çoxluğu ilə ləğv edilə bilər.

Ali Məhkəmənin hakimlərinin sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir və onlar bu vəzifəyə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin edilir.

Ali Məhkəmə 2012-ci ildə Ali Məhkəmənin sədrindən, məhkəmə kollegiyalarının sədrlərindən və hakimlərindən - cəmi 33 hakimdən ibarət tərkibdə fəalliyyət göstərmiş,lakin 2012-ci ilin ikinci yarısında bir hakim pensiya yaşına çatdığına görə, bir hakim isə başqa vəzifəyə təyin olunduğuna görə Ali Məhkəmənin hakimi vəzifəsindən azad edilmişlər.

Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir.

# Azərbaycan Respublikası Ali Məhkəməsinin strukturu



# Ali Məhkəmədə 2012-ci ildə baxılan işlər haqqında ümumi məlumat




Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda 2012-ci ildə cəmi **6926** işə, o cümlədən:

- Cinayət kollegiyasında **1742** nəfər haqqında **1504** işə,
- Hərbi kollegiyada **131** nəfər haqqında **113** işə,
- Mülki kollegiyada **4265** işə,
- İnzibati-iqtisadi kollegiyada **1080** işə, (**634 inzibati, 446 iqtisadi işə)**
- Plenumda isə **14** işə baxılmışdır.

Statistik məlumatların müqayisəli təhlili göstərir ki, Ali Məhkəmədə 2012-ci ildə baxılmış işlərin ümumi sayı 2011-ci illə müqayisədə **1187** iş, **yəni 20,5 %** artmışdır.

Eyni zamanda müəyyən edilmişdir ki, 2011-ci ilə nisbətən 2012-ci ildə Ali Məhkəmədə baxılan işlərin sayı:

-Cinayət kollegiyasında **558 iş, ( 59%);**
-Hərbi kollegiyada **6 iş ( 5,6%) ;**
-Mülki kollegiyada **242 iş (6%) ;**
-İnzibati-iqtisadi kollegiyada **398 iş (58,3%) artmış,**
-Plenumda isə **17 iş ( 54,8%) azalmışdır.**

Məhkəmə statistikasına dair məlumatlardan görünür ki, Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən 2012-ci ildə **12938 nəfər**, o cümlədən birinci instansiya ümumi məhkəmələr tərəfindən **11199 nəfər,** Hərbi Məhkəmələr tərəfindən isə **1739** nəfər məhkum edilmiş, bu müddətdə **23** nəfər barəsində bəraət hökmü çıxarılmışdır.

Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2012-ci ildə ümumi məhkum edilənlərin sayı 2011-cı ilə nisbətən **252** nəfər azalmışdır.

Qeyd olunan müddətdə Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən ümumi məhkum edilənlərdən **3671 nəfər** barəsində hökm və qərarlara apellyasiya şikayəti və protesti əsasında müvafiq apellyasiya məhkəmələri tərəfindən baxılmışdır ki, bu da respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılan cinayət işləri üzrə məhkum edilənlərin cəmi **28,3 faizini** təşkil edir.

Məlumatın əhatə etdiyi dövrdə Apellyasiya Məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış **3671** nəfər haqqındakı hökm və qərarlardan **1873** nəfər barəsində işə Ali Məhkəmədə kassasiya şikayəti və protesti əsasında baxılmışdır ki, bu da respublikanın apellyasiya məhkəmələrində 2012-ci ildə baxılmış cinayət işləri üzrə məhkum edilənlərin cəmi **51** faizini təşkil edir.




**Göründüyü kimi, 2012-ci ildə respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılmış cinayət işləri üzrə məhkum olunmuş şəxslər barəsində çıxarılmış hökm və qərarların 28,3 faizinin qanuniliyi apellyasiya qaydasında, apellyasiya məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış hökm və qərarların 51 faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.**

Bundan əlavə, Respublikanın birinci instansiya ümumi və inzibati iqtisadi məhkəmələri tərəfindən 2012-ci ildə **139.735** işə, o cümlədən **118.387** mülki işlərə, **21.348** inzibati iqtisadi işlərə baxılmışdır ki, bu da bütövlükdə 2011-ci ildə baxılmış mülki və inzibati-iqtisadi işlərdən **12.486** iş çoxdur.

Məlumatların əhatə etdiyi dövrdə, Respublikanın birinci instansiya ümumi və inzibati-iqtisad məhkəmələri tərəfindən qətnamə və qərardad çıxarılmaqla **94.319** işə baxılmış, həmin işlər üzrə məhkəmə qərarlarından verilmiş apellyasiya şikayəti əsasında müvafiq apellyasiya məhkəmələrində **10.218** işə baxılmışdır ki, bu da birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələrində baxılmış işlərin cəmi **10,8** faizinin təşkil edir.

Qeyd olunan müddətdə respublikanın apellyasiya məhkəmələrində baxılmış mülki və inzibati-iqtisadi işlər üzrə qəbul edilmiş qətnamə və qərarlardan verilmiş kassasiya şikayətləri əsasında **5345** isə Ali Məhkəmənin müvafiq kollegiyalarında kassasiya qaydasında baxılmışdır ki, bu da apellyasiya qaydasında baxılmış mülki və inzibati-iqtisadi işlərin **52,3** faizini təşkil edir.

Göründüyü kimi, Respublikanın birinci instansiya ümumi və inzibati iqtisadi məhkəmələri tərəfindən 2012-ci ildə baxılmış mülki və inzibati iqtisadi işlər üzrə çıxarılmış yekun məhkəmə qərarlarının cəmi **10,8** faizinin qanuniliyi apellyasiya qaydasında , apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərarlarının isə **52,3** faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.

# Ali Məhkəmənin kollegiyalarında və Plenumunda icraat

Ali Məhkəmənin məhkəmə kollegiyalarında ədalət mühakiməsi işlərə (materiallara) qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hədlərdə kassasiya qaydasında baxılmaqla həyata keçirilir.

**Ali Məhkəmənin Cinayət və Hərbi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Mülki və İnzibati İqtisadi Kolleqiyalarında** apellyasiya instansiyası məhkəmələrinin mülki və inzibati - iqtisadi kollegiyalarının qətnamə, qərardad və qərarlarından verilən kassasiya şikayətinə və işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki, inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qətnamə, qərardad və qərarlarından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və yaxud qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə işlərə baxılır.

# Ali Məhkəmənin kollegiyalarında 2012-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat

## 1. Ali Məhkəmənin Cinayət kollegiyası




Ali Məhkəmənin Cinayət kollegiyasında (bundan sonra **«CK»**) apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyaları tərəfindən qəbul edilmiş hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

CK-da müharibə cinayətləri, hərbi xidmət əleyhinə olan cinayətlər və habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işləri, məhkəmyədək sadələşdirilmiş və ya xüsusi ittiham qaydasında şikayət üzrə materiallar istisna olmaqla, qalan cinayət işlərinə (materiallara) kassasiya qaydasında baxılır.

CK-ya 2012-ci ildə cəmi **2070 nəfər** haqqında **1800 iş, o cümlədən 1662 (80,3%)** nəfər haqqında **1446 (80,3%)** iş kassasiya şikayətinə, **408 (19,7%)** nəfər haqqında **354 (19,7%)** iş kassasiya protestinə əsasən daxil olmuşdur.

Məlumatın əhatə etdiyi dövrdə CK-da **1742 nəfər haqqında 1504 cinayət işi üzrə yekun məhkəmə qərarı çıxarılmış, 64 (3,1%) nəfər** haqqında **64** iş üzrə kassasiya şikayəti qanunvericilikdə nəzərdə tutulan tələblərə uyğun olmadığından verildiyi üçün baxılmamış saxlanılmış, **264 (12,8%) nəfər haqqında 232 (12,9%) iş** isə ilin sonunda daxil olduğundan 2013-cü ilə keçirilmişdir.

2012-cı ildə CK-da ümumilikdə kassasiya qaydasında mahiyyəti üzrə baxılmış **1742 nəfər** haqqında **1504 işə** iş üzrə çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:




**- 1170(67,2%) nəfər haqqında 1008 (67,1%) iş üzrə qərarları dəyişdirilmədən saxlanılmış;**
**- 259 (14,9% ) nəfər haqqında 214 (14%) iş üzrə qərarı ləğv olunaraq, iş yeni apellyasiya baxışına qaytarılmış;**
**- 10 nəfər (0,6% haqqında 9(0,6%) cinayət işi üzrə qərarlar CM-nin 132-ci maddəsinin Məcəllədən çıxarılması ilə əlaqədar olaraq ləğv edilərək bu işlər üzrə icraata xitam verilmiş;**
**- 86 (4,9 %) nəfər haqqında 77 (5,1%) iş üzrə qərarlar dəyişdirilmiş;**
**- 6 (0,9%) nəfər haqqında 5 (0,4%) iş üzrə kassasiya şikayətindən imtina edildiyindən kassasiya şikayətinin icraatına xitam verilmiş;**
**- 56 (3,2%) nəfər haqqında olan 50 (3,3%) iş üzrə kassasiya şikayəti verilmə müddəti bərpa olunmamış;**
**- 155 (8,9%) nəfər haqqında 143 (9,5%) iş üzrə olan kassasiya şikayəti məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmışdır;**

CK-da 2012-ci ildə baxılmış işlər üzrə **2** xüsusi qərar çıxarılmışdır.
Bundan əlavə Ali Məhkəmənin Cinayət Kollegiyasının hakimləri tərəfindən 2012-ci ildə İnsan hüquqları üzrə Avropa Məhkəməsində kommunikasiya edilən **10 nəfər** Azərbaycan Respublikasının vətəndaşlarının şikayətləri üzrə Ali Məhkəməyə göndərilmiş sorğu məktubları əsasında cinayət işləri tələb edilərək öyrənilmiş və sorğularda qoyulmuş suallara cavab məktubları hazırlanaraq Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsinə göndərilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Cinayət kollegiyasının hakimləri tərəfindən **102 nəfərin** əlavə kassasiya şlkayətləri ilə bağlı qərar layihələri hazırlanmış, əfv komissiyasından Ali Məhkəməyə daxil olmuş materiallar əsasında **266 rəy** hazırlanaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyası Hüquq mühafizə orqanları ilə iş şöbəsinin əfv məsələləri üzrə sektoruna göndərilmişdir.

Qeyd olunan müddətdə Azərbaycan Respublikası Baş Prokurorunun vəsatətlərinə əsasən prokurorluğun **4 nəfə**r sabiq əməkdaşlarının barəsində olan cinayət işləri üzrə cinayət məsuliyyətinə cəlb edilməsi və barələrində həbs qətimkan tədbirinin seçilməsinə razılıq verilməsinə dair qərar layihələri hazırlanmışdır.

Ali Məhkəmənin Cinayət Kollegiyasında 2012-ci ildə apellyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılma nəticələrinə dair məlumat aşağıdakı cədvəldə əks olunmuşdur.

## *Azərbaycan Respublikası Ali Məhkəməsində Cinayət kollegiyasında 2012-ci ildə apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair*

# M Ə L U M A T

| Sıra | Apelyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb *(nəfərlə)* | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | Ləğv olunub: Yeni apelyasiya | Ləğv olunub: İş üzrə icraata xitam | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Kassasiya şikayəti qeri | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | AR-nın Apellyasiya Məhkəməsinin *2007-ci ilin 16 iyul tarixədək olan qərarlarından* | 8 | *2* | - | - | - | - | - | - | *6* | - |
| 2 | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 4 | *3* | - | - | - | - | - | - | - | - |
| 3 | Bakı Apelyasiya Məhkəməsi | 1113 | *776* | *140* | *138* | *2* | *3* | *51* | *107* | *56* | - |
| 4 | Gəncə Apelyasiya Məhkəməsi | 156 | *104* | *28* | 28 | - | - | *6* | *15* | *3* | - |
| 5 | Şırvan Apelyasiya Məhkəməsi | *203* | *114* | *51* | *48* | *3* | *1* | *13* | *15* | *9* | - |
| 6 | Sumqayıt Apelyasiya Məhkəməsi | 195 | *121* | *42* | *37* | 5 | *2* | *14* | *15* | *3* | - |
| 7 | Şəki Apelyasiya Məhkəməsi | 63 | *50* | *8* | 8 | - | - | 2 | 2 | 1 | - |
| | Cəmi | *1742* | *1170*<br>*67,2%* | *269*<br>*15,4%* | *259*<br>*14,9%* | *10*<br>*0,6%* | *6*<br>*0,3%* | *86*<br>*4,9%* | *155*<br>*8,9%* | *56*<br>*3,2%* | 2 |

**QEYD: Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin CK-da 2011-ci ildə 1082 nəfər haqqında 946 işə baxıldığı halda, 2012-ci ildə 1742 nəfər haqqında 1504 cinayət işinə baxılmışdır ki, bu da işlərin sayına görə 558 (59%) iş, şəxslərin sayına görə isə 660(61%) nəfər çox olmuşdur.**

***Ali Məhkəmənin cinayət kollegiyasında 2012-ci ildə baxılmış işlərin sayının 2011-ci illə müqayisədə artmasına baxmayaraq, 2012-ci ildə apellyasiya məhkəmələrinin ləğv edilən qərarların sayı şəxslərin sayına nisbətdə 1,6 % azalmışdır.***

## 2. Ali Məhkəmənin Hərbi kollegiyası




Ali Məhkəmənin Hərbi kollegiyasında (bundan sonra «HK») apellyasiya instansiyası məhkəmələrinin hərbi kollegiyaları tərəfindən qəbul edilmiş hökm və qərarlardan verilən kassasiya şikayətinə və kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəmələrinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyalarının qəbul etdikləri hökm və digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata əsasən müharibə cinayətlərinə, hərbi xidmət əleyhinə olan cinayətlərə və habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işlərinə kassasiya qaydasında baxılır.

**2012-ci ildə HK-ya cəmi 144 nəfər haqqında 126 cinayət işi, o cümlədən 119 nəfər (82,6%) haqqında 107(84,9%) iş kassasiya şikayəti, 25 nəfər (17,4%) haqqında 19 iş isə kassasiya protestinə əsasən daxil olmuşdur.**

**Məlumatın əhatə etdiyi dövrdə HK-da 131 nəfər haqqında 113 cinayət işinə baxılmış, 13 nəfər haqqında 13 cinayət işi icraata ilin sonunda daxil olduğu üçün həmin işlərin baxılması 2013-cü ilə təyin edilmişdir.**

**2012-ci ildə HK-da kassasiya qaydasında baxılmış 131 nəfər haqqında 113 iş üzrə çıxarılmış yekun qərarı ilə apellyasiya instansiya məhkəmələrinin:**

**- 70 nəfər (53,4%) haqqında 64 iş üzrə qərarlar dəyişdirilmədən saxlanılmış;**

**- 19 nəfər (14,5%) haqqında 18 iş üzrə (15,9%) qərarlar məhkumlara təyin edilmiş cəzalarla əlaqədə dəyişdirilmiş;**

**- 19 nəfər (14,5%) haqqında 13 iş üzrə (11,5%) qərarlar ləğv edilərək, bu işlər yeni apellyasiya baxışına qaytarılmış;**

**- 1 nəfər (0,8%) haqqında 1 cinayət işi üzrə kassasiya şikayəti vermə müddətinin bərpasına dair vəsatət təmin edilməmiş;**

**- 22 nəfər (16,8%) barəsində kassasiya şikayəti məhkumların və ya onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmışdır.**




Bundan əlavə hərbi kollegiyanın hakimləri tərəfindən 2012-ci ildə əlavə kassasiya şikayətləri ilə bağlı 6 iş üzrə qərar layihələri hazırlanmışdır.

Bu müddətdə əfv komissiyasından Ali Məhkəməyə daxil olmuş materiallar əsasında **195 rəy** hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Hüquq mühafizə orqanları ilə iş şöbəsinin əfv məsələləri sektoruna göndərilmişdir.

**Qeyd olunan məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə ayrı-ayrılıqda aşağıdakı cədvəldə əks olunmuşdur.**

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasında 2012-ci ildə apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

***C Ə D V Ə L***

| Sıra | Apelyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb (nəfərlə) | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | Ləğv olunub | | Kasasiya icraatına xitam | Dəyişdirilib | Kassasiya şikayəti geri qaytarılıb | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apelyasiya | İş üzrə icraata xitam verilib | | | | | |
| 1 | **Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi** | **9** | *7* | - | - | - | - | 1 | 1 | 1 | - |
| 3 | **Bakı Apelyasiya Məhkəməsi** | **21** | *12* | *4* | *4* | - | - | *2* | *3* | - | - |
| 4 | **Gəncə Apelyasiya Məhkəməsi** | **48** | *19* | *3* | 3 | - | - | *13* | *13* | - | - |
| 5 | **Şırvan Apelyasiya Məhkəməsi** | *37* | *27* | *4* | *4* | - | - | *3* | *2* | *1* | - |
| 6 | **Sumqayıt Apelyasiya Məhkəməsi** | **11** | *1* | *7* | *7* | - | - | *1* | *3* | - | - |
| 7 | **Şəki Apelyasiya Məhkəməsi** | **5** | *4* | *1* | 1 | - | - | - | - | - | - |
| | **Cəmi** | **131** | ***70*** *53,4%* | ***19*** *14,5%* | ***19*** *14,5 %* | - | - | ***19*** *14, 5%* | ***22*** *16,8%* | ***1*** *0,8 %* | - |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin HK-da 2011-ci ildə **119 nəfər** haqqında **107** işə baxıldığı halda, **2012-ci ildə** **131** nəfər haqqında **113** işə baxılmışdır ki, bu da işlərin sayına görə 6 **iş** , şəxslərin sayına görə isə **12 nəfər** çox olmuşdur.

## 3. Ali Məhkəmənin Mülki kollegiyası




Ali Məhkəmənin Mülki kollegiyasında (bundan sonra «**MK**») apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2012-ci ildə MK-nın icraatında 5030 iş olmuşdur ki, bu da 2011-ci ildə icraatda olmuş 4684 mülki işdən 346 iş, yəni 7,4 % çoxdur.

Məlumatın əhatə etdiyi dövrdə MK-nın icraatda olan **5030** mülki işdən **4265 işə (84,8%) yekun məhkəmə qərarı çıxarılmaqla mahiyyəti üzrə baxılmış,** 85 **iş (1,7%)** baxılmadan qaytarılmış, **16 iş (0,3%)** baxışdan çıxarılmış, **664 (13,2%) iş icraata** ilin sonunda daxil olduğundan həmin işlərin baxılması 2013-cü ilə təyin edilmişdir.

MK-da yekun məhkəmə qərarı çıxarılmaqla 2011-ci ildə **4023** mülki işə baxıldığı halda, 2012-ci ildə bu işlərin sayı **242 iş (6 %) artaraq 4265** mülki iş təşkil etmişdir.

Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, 2012-ci ildə mahiyyəti üzrə baxılmış, mənzil, torpaq, ailə və əmək mübahisələri ilə bağlı mülki işlərin sayı 2011-ci ilə nisbətən çoxalmışdır.

MK-da 2012-ci ildə işlərə kassasiya qaydasında baxılmasının nəticələri aşağıdakı kimi olmuşdur:

- **3300 iş üzrə (77,4%)** apellyasiya instansiya məhkəmələrinin qətnamə və qərardadları dəyişdirilmədən saxlanılmışdır;

- **913 iş üzrə (21,4 %)** apellyasiya instansiya məhkəmələrinin qətnamə və qərardadları ləğv edilərək, onlardan;

- **807 iş üzrə (18,9%)** qətnamə və qərardad ləğv edilərək iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəmələrinə qaytarılmış;

- **89 iş üzrə (2,1%)** qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmişdir;

- **2 iş üzrə (0,05%)** qətnamə ləğv edilərək, (ərizə) iddia baxılmamış saxlanılmış;

- **15 iş üzrə (0,4%)** qətnamə ləğv edilərək iç üzrə icraata xitam verilmiş;

- **25 iş üzrə (0,6%)** qətnamə və qərardad dəyişdirilmiş;




- **27 iş üzrə (0,6%)** şikayətçi kassasiya şikayətindən imtina edildiyi üçün kassasiya icraatına xitam verilmişdir.

**Mülki Kollegiyanın icraatına 2012-ci ildə xarici ölkə məhkəmələrinin qərarlarının Azərbaycan Respublikasında tanınması və icraçı ilə bağlı 95 ərizə daxil olmuş, onlardan 46 ərizəyə baxılmış, 36 ərizə geri qaytarılmış, 13 ərizənin baxılması isə 2013-cü ilə keçirilmişdir.**

**Bu müddətdə mülki kollegiyanın hakimləri tərəfindən 457 əlavə kassasiya şikayətləri öyrənilərək həmin şikayətlər üzrə qərar layihələri hazırlanmışdır.**

**Bundan əlavə, 2012-ci ildə apelyasiya instansiya məhkəmələrində mülki işlərə baxılarkən qanunvericiliyin tətbiqi ilə əlaqədar konkret işlər üzrə hakimlər tərəfindən yol verilmiş qüsurlar barədə həmin məhkəmələrə 41 məktub göndərilmişdir.**

**Ali Məhkəmənin mülki kollegiyasında 2012-ci ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərarlarına kassasiya qaydasında baxılma nəticələrinə dair məlumat aşağıdakı cədvəldə əks olunmuşdur.**

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasında 2012-ci ildə apelyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

***M Ə L U M A T***

| Sıra | Apelyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq | | | | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apelyasiya | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| 1 | AR Apelyasiya Məhkəməsinin 16 iyul 2007-ci il tarixədək olan qərarlarından | 4 | 2 | 2 | 1 | 1 | | | | | |
| 2 | Naxçıvan MR Ali Məhkəməsi | 21 | 20 | 1 | | | 1 | | | | |
| 3 | Bakı Apelyasiya Məhkəməsi | 2 437 | 1 912 | 528 | 464 | 53 | | 11 | 18 | 16 | 3 |
| 4 | Gəncə Apelyasiya Məhkəməsi | 636 | 475 | 155 | 137 | 16 | | 2 | 4 | 1 | |
| 5 | Şırvan Apelyasiya Məhkəməsi | 320 | 244 | 72 | 64 | 7 | | 1 | 2 | 2 | |
| 6 | Sumqayıt Apelyasiya Məhkəməsi | 541 | 426 | 107 | 96 | 9 | 1 | 1 | 3 | 5 | 2 |
| 7 | Şəki Apelyasiya Məhkəməsi | 270 | 221 | 48 | 45 | 3 | | | | 1 | |
| Cəmi | | 4 265 | 3 300 77,4% | 913 21,4% | 807 18,9 % | 89 2,1% | 2 0,05 % | 15 0,4% | 27 0,6% | 25 0,6 % | 5 |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin MK-da 2011–ci ildə **4 023 işə** baxıldığı halda, 2012-cı idə **4 265 işə** baxılmışdır ki,halda, bu da 2011-ci ildə baxılmış işlərin sayından **242 (6%) iş çoxdur.**

2012-ci ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən **53 644 manat 70 qəpik** dövlət rüsumu ödənilmişdir.

## 4. Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası




Ali Məhkəmənin İnzibati-iqtisadi kollegiyasında (bundan sonra «**İİK**») apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi kollegiyalarının qətnamə, qərardad və qərarlarından verilən kassasiya şikayətinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin İnzibati-iqtisadi kollegiyasının qətnamə, qərardad və qərarlarından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2012-ci ildə İİK-nın icraatına **1 361 iş** daxil olmuşdur ki, bu da 2011-cı ildə icraatda olmuş **804 işdən 557 iş, (69,3%) çoxdur.**

İİK-nın icraatında olan **1 361 işdən 1 080 (79,4%) işə** (634 (58.7%) inzibati işə, 446 (41.9%) iqtisadi işə) yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, **48 (3,5%) iş** baxılmadan geri qaytarılmış; **233 (17,1%) iş** isə icraata ilin sonunda daxil olduğu üçün 2013-ci ilə qalıq keçirilmişdir.

İİK-da 2011-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla **682** işə baxılmışdırsa, 2012-ci ildə belə işlərin sayı **398 (58,3%) artaraq, 1080** iş təşkil etmişdir.

**İİK-da** 2012-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla **baxılan 1080 işdən, 90 iş (8,3%) - əmək mübahisələri ilə əlaqədar, 200 iş (18,5%) vergi ödəmələri ilə bağlı, 117 iş (10,8%) torpaq mübahisələri ilə bağlı, 171 iş (15,8%) müvafiq icra hakimiyyəti və yerli özünüidarə və sair orqanların və onların vəzifəli şəxslərinin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) verilən ərizələr üzrə, 89 iş (8,3%) borc müqavilələri üzrə 26 iş (2,4%) sığorta müqavilələri ilə bağlı, 20 iş (1,9%) kredit müqavilələri üzrə, qalan - 341 (31,6%) işlər isə digər mübahisələrlə əlaqədar olmuşdur.**

İİK-da 2012-ci kassasiya qaydasında baxılmış **1080 iş üzrə** çıxarılmış yekun məhkəmə qərarlar ilə apellyasiya instansiya məhkəmələrinin ----




- **830 (76,8%)** iş üzrə qətnamə, qərardad və qərarları dəyişdirilmədən saxlanılmış;

- **233 (21,6%)** iş qətnamə, qərardad və qərarlar ləğv edilərək, onlardan:

- **192 (17,8%)** iş üzrə qətnamə, qərardad və qərarlar ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

- **14 (1,3%)** iş üzrə qətnamə, qərardad və qərarlar ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;

- **18 (1,7%)** iş üzrə qətnamə, qərardad və qərarlar ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış;

- **9 (0,8%)** iş üzrə qətnamə, qərardad və qərarlar ləğv edilərək iş üzrə icraata xitam verilmişdir;

- **5 (0,5%)** iş üzrə qətnamə, qərardad və qərarlar dəyişdirilmiş;

- **12 (1,1%)** iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

Bundan əlavə, məlumatın əhatə etdiyi dövrdə inzibati-iqtisadi kollegiyanın hakimləri tərəfindən **64** əlavə kassasiya şikayətləri öyrənilərək həmin işlər üzrə qərar layihələri hazırlanmışdır.

2012-ci ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən **9 001 manat 60 qəpik** dövlət rüsumu ödənilmişdir.

**Ali Məhkəmənin inzibati –iqtisadi kollegiyasında 2012-ci ildə apellyasiya məhkəmələrində baxılmış işlər üzrə verilmiş kassasiya şikayətlərinə baxılması nəticəsi haqda məlumatlar aşağıdakı cədvəldə əks olunmuşdur.**

***Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasında 2012-ci ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə, qərardad və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

***M Ə L U M A T***

| Sıra | Apelyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq | | | | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apelyasiya | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| 1 | **Bakı Apelyasiya Məhkəməsi** | 753 | *577* | *161* | *128* | *11* | *13* | *9* | *11* | *4* | 1 |
| 2 | **Gəncə Apelyasiya Məhkəməsi** | **66** | *49* | *16* | *14* | **1** | *1* | | **1** | | |
| 3 | **Şırvan Apelyasiya Məhkəməsi** | 42 | *34* | *8* | *6* | 1 | 1 | | | | |
| 4 | **Sumqayıt Apelyasiya Məhkəməsi** | 148 | *117* | *31* | *28* | 1 | *2* | | | | |
| 5 | **Şəki Apelyasiya Məhkəməsi** | 69 | *51* | *17* | *16* | | 1 | | | 1 | |
| 6 | **Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi** | 2 | *2* | - | - | - | - | - | - | - | |
| | **Cəmi** | *1 080* | *830 76,8%* | *233 21,6%* | *192 17,8 %* | *14 1,3%* | *18 1,7%* | *9 0,8%* | *12 1,1%* | *5 0,5 %* | 1 |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin İİK-da 2011-cı ildə **682** **işə** baxıldığı halda, 2012-ci ildə **1080** **işə** baxılmışdır ki, bu da 2011-ci ildə baxılmış **işlərin sayına görə** **398** **iş (36,8%) çoxdur.**

**Statistik məlumatlardan görünür ki, 2011-ci ildə baxılmış bu növ işlər üzrə apelyasiya instansiyası məhkəmələrinin** ləğv edilmiş qətnamə, qərardad və qərarların 25% təşkil etdiyi halda 2012-cı ildə baxılmış işlər üzrə apellyasiya instansiya məhkəmələrinin ləğv edilən qətnamə, qərardad və qərarları **21,5%** təşkil etmişdir.

Hesabat dövründə İİK-da baxılan işlər üzrə **1** **xüsusi qərardad** çıxarılmışdır.

## *5. Ali Məhkəmənin Plenumu*

### Ali Məhkəmə Plenumunun işi haqqında məlumat

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununun 79-cu maddəsinə əsasən **Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və yaxud qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə işlərə baxılır.

2012-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun **5** iclası keçirilmişdir.

Ali Məhkəmə Plenumunun 17 fevral 2012-ci tarixli iclasında Ali Məhkəmənin Kollegiyalarında 2011-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair müvafiq Kollegiya sədrlərinin məlumatları dinlənilmişdir.

Bundan əlavə qeyd olunan tarixdə Plenum iclasında "Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən müəyyən edilməsi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 28 iyun 2002-ci il tarixli qərarına müvafiq dəyişikliklər edilməsi haqqında qərar qəbul edilmişdir.

Ali Məhkəmənin 30 may 2012-ci il tarixli Plenum iclasının qərarı ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatı haqqında Əsasnamə, Azərbaycan Respublikası Ali Məhkəməsi hakiminin döş nişanının təsviri və bu haqda Əsasnamə, Azərbaycan Respublikası Ali Məhkəməsinin xatirə medalının təsviri və bu haqda Əsasnamə təsdiq edilmişdir.

Ali Məhkəmənin 02 iyul 2012-ci il tarixli Plenum iclasında "Azərbaycan Respublikasında Mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 1.5 və 12-ci maddələrinin Azərbaycan Respublikası Ailə Məcəlləsinin 31.1-ci və Mülki Məcəllənin 225.1-ci maddələri baxımından şərh edilməsi barədə;

Ali Məhkəmənin 14 sentyabr 2012-ci il tarixli Plenum iclasında Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 666.1, 670.1, 670.3, 673.1-ci maddələrinin şərh

edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğular verilməsi haqqında qərar qəbul edilmişdir.

Ali Məhkəmənin 08 noyabr 2012-ci il tarixli Plenum iclasında "Məhkəmələr tərəfindən tibbi xarakterli məcburi tədbirlərin tətbiqi təcrübəsi haqqında", Azərbaycan Respublikası Cinayət və Cinayət-Prosessual Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verilməsi haqqında" qərarlar qəbul edilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Plenum iclaslarında **14 işə**, o cümlədən **11 mülki, 3 cinayət** işlərinə baxılmışdır ki, bu da 2011-ci ildə Plenumda baxılmış işlərlə müqayisədə **17 iş (54,8%) azdır.**

Qeyd edilən müddətdə Ali Məhkəmənin Plenumunda baxılmış mülki işlərdən **1-i** İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları, **5-i** Konstitusiya Məhkəməsinin qərarları, **4-ü** yeni açılmış hallara dair ərizələrə əsasən, **1-i** isə Ali Məhkəmə sədrinin təqdimatına əsasən baxılmışdır.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən baxılmış **1** mülki iş üzrə məhkəmə qərarları ləğv edilərək, mülki iş yenidən baxılması üçün Apellyasiya instansiya məhkəməsinə göndərilmişdir.

Konstitusiya Məhkəməsinin qərarları əsasında baxılmış **5** mülki iş üzrə kassasiya və apellyasiya instansiya məhkəmələrinin qərarları ləğv edilərək, bu işlər yeni apellyasiya baxışına göndərilmişdir.

Yeni açılmış hallar üzrə iki iş üzrə yenidən baxılma rədd edilmiş, bir mülki iş üzrə şikayət təmin edilərək birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilərək, mülki iş yenidən baxılması üçün birinci instansiya məhkəməsinə , digər mülki iş üzrə isə yeni açılmış hallar üzrə ərizə təmin edilərək məhkəmə aktı ləğv edilərək, mülki iş yenidən baxılması üçün birinci instansiya məhkəməsinə göndərilmişdir.

Ali Məhkəmə sədrinin təqdimatı əsasında baxılmış **1** mülki iş üzrə məhkəmə qərarları qismən ləğv edilərək iş yeni apellyasiya baxışına göndərilmişdir.

**Ali Məhkəmə Plenumunun** iclasında 2012-ci ildə **3** cinayət işinə baxılaraq müvafiq qərarlar qəbul edilmişdir:

Qeyd olunan cinayət işlərinə əlavə kassasiya şikayətinə, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına və Azərbaycan Respublikası Baş Prokurorunun əlavə kassasiya protestinə əsasən baxılmışdır.

Bir cinayət işi üzrə verilmiş əlavə kassasiya şikayəti təmin edilərək Ali Məhkəmənin CK-nın qərarı təyin edilmiş cəza ilə əlaqədar dəyişdirilmiş, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən baxılmış cinayət işi üzrə kassasiya instansiya məhkəməsinin qərarı ləğv edilərək iş yeni kassasiya baxışına, Azərbaycan Respublikası Baş Prokurorunun əlavə kassasiya protestinə əsasən baxılmış **1 cinayət işi** üzrə kassasiya və apellyasiya instansiya məhkəmələrinin qərarları ləğv edilərək işlər yeni apellyasiya baxışına göndərilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunda**
**2011-2012-ci illərdə baxılmış işlər haqqında müqayisəli**
**MƏLUMAT**

| **İşlərin baxılma əsasları** | ***2011 il*** | ***2012 il*** | ***Fərq*** | |
|---|---|---|---|---|
| | | | ***Artıb*** | ***Azalıb*** |
| **Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış mülki işlər** | ***20*** | ***5*** | ***-*** | ***15<br>75%*** |
| **Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış iqtisad işləri** | ***1*** | ***-*** | ***-*** | ***1<br>100%*** |
| **Əlavə kassasiya şikayəti və protestlərə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış cinayət işləri** | ***2*** | ***2*** | ***-*** | ***-*** |
| **Konstitusiya Məhkəməsi qərarlarına əsasən mülki işlər üzrə qüvvədən düşmüş hesab edilən qərarlarla əlaqıdar** | ***3*** | ***5*** | ***2<br>66,7%*** | ***-*** |
| **İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən baxılmış cinayət işləri üzrə** | ***2*** | ***1*** | ***-*** | ***1<br>50%*** |
| **İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən baxılmış mülki işlər üzrə** | ***3*** | ***1*** | ***-*** | ***2<br>66,7%*** |
| **Cəmi:** | ***31*** | ***14*** | ***-*** | ***17<br>54,8%*** |

## Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi

Ali Məhkəmədə onun fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını həyata keçirmək üçün məhkəmə Aparatı və İşlər İdarəsi fəaliyyət göstərir.

Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi öz səlahiyyətlərinə görə birinci kateqoriya dövlət orqanının məhkəmə aparatıdır, inzibati və yardımçı vəzifə tutan dövlət qulluqçularından ibarətdir.

«Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə ölkəmizin məhkəmə sisteminin inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır.

Ali Məhkəmənin və bütövlükdə məhkəmə sisteminin informasiya sisteminin yaradılması və təkmilləşdirilməsi vahid razılaşdırılmış prinsiplər əsasında qurulmuş, Ali Məhkəmə rəhbərliyinin, aparatının və hakimlərin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi keyfiyyətcə yeni mərhələyə keçidin əsasını qoymuşdur.

Ali Məhkəmədə İnformasiya texnologiyalarının tətbiqi sahəsində əsas məqsəd hakimlərin və məhkəmə aparatının fəaliyyətinin müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə müasirləşdirilməsi və prinsipcə yeni formaya keçməsi ilə məhkəmənin fəaliyyətinin effektivliyinin artırılması təşkil edir.

Bu isə «Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı və Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan) yerinə yetirilməsi ilə birbaşa bağlı olub aşağıdakı işlərin yerinə yetirilməsini nəzərdə tutur:

- mühakimə üsulunun təkmilləşdirilməsi və ədalət mühakiməsinin daha da əlyetərli olmasının təmin olunması;

- hakimlərin və məhkəmə aparatının fəaliyyətinin effektivliyinin artırılması;

- məhkəmə sisteminin informasiya fəzasında eyniliyinin təmin olunması;

- əhali və təşkilatlar üçün məhkəmələrin daha da açıqlılığının təmin olunması.

Qeyd olunan vəzifələrin yerinə yetirilməsi məqsədi ilə Ali Məhkəmədə bir sıra işlər həyata keçirilir:

- məhkəmə işlərinin, vətəndaşların və təşkilatların ərizə və şikayətlərinin baxılma müddətinin müasir informasiya-kommunikasiya texnologiyalarının – internet, elektron sənəd dövriyyəsi, böyük həcmli məlumatların işlənməsi və saxlanması, video-konfrans əlaqə və s. texnologiyaların kompleks şəkildə tətbiqi vasitəsi ilə qısaldılması;

- məhkəmədə kargüzarlığın və məhkəmə statistikasının məlumatlarının keyfiyyətinin artırılması;

- Ali Məhkəmənin digər instansiya məhkəmələri, Respublika Prokurorluğu, Ədliyyə Nazirliyi və digər dövlət idarəetmə orqanları ilə məlumat mübadiləsinin operativliyinin artırılması;

- Qərarların qəbul edilməsi üçün müasir analitik metodlarının tətbiqi vasitəsi ilə Ali Məhkəmənin fəaliyyətinin bütün sahələrində administrativ-idarəetmə proseslərinin məlumat təminatının keyfiyyətinin yüksəldilməsi;

- Ali Məhkəmənin avtomatlaşdırılmış məlumat sisteminin təhlükəsizliyinin kompleks şəkildə təmin olunması;

- Avtomatlaşdırılmış idarəetmə sisteminin qarşısında qoyulmuş tələblərə uyğun olaraq informasiya vasitələrinin etibarlılığının və səmərəliliyinin kompleks şəkildə artırılması, təkmilləşdirilməsi və informasiya-kommunikasiya vasitələrinin inkişaf etdirilməsi üçün maddi-texniki və maliyyə təminatının olması;

- müasir informasiya texnologiyalarının tətbiqi sahəsində effektivliyinin artırılması məqsədi ilə hakimlərin və məhkəmə aparatı işçilərinin ixtisasının artırılması.

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nda (Elektron Azərbaycan) nəzərdə tutulmuş " Ali Məhkəmənin "Elektron kargüzarlıq və sənəd

dövriyyəsi" sisteminin təkmilləşdirilməsi, daha müasir texnologiyaların tətbiqi ilə beynəlxalq standartlara uyğunlaşdırılması" bəndinin yerinə yetirilməsi və informasiya texnologiyalarının tətbiqi sahəsində müəyyən işlər yerinə yetirilmiş və 2012-2013-ci illərdə yerinə yetiriləcək işlərin planı hazırlanmışdır.

2012-ci ildə mövcud "Elektron sənəd dövriyyəsi və kargüzarlıq sistemi" yeni daha müasir əsasa köçürülmüş, sistemdə istifadəçilərin işinin yüngülləşdirilməsi və sənədlərin işlənməsini sürətləndirmək məqsədi ilə müəyyən dəyişikliklər edilmiş, işlərin yerinə yetirilməsinə nəzarəti təmin etmək üçün xüsusi daxili axtarış-nəzarət sistemi yaradılmış, "İnternet portal www.supremecourt.gov.az"-da "E-Xidmətlər" bölməsinə dəyişikliklər və yeni bəndlər, "Təhlil və statistika sistemi"nə alətlər və statistik formalar əlavə edilmiş, Ali Məhkəmənin kadrlar sektoru üçün xüsusi proqram kompleksi yaradılmış və istifadəyə verilmiş, mühasibat uçotu proqram təminatında qanunvericiliyə uyğun dəyişikliklər edilmişdir.

Ali Məhkəmə Aparatının strukturunda müvafiq dəyişikliklər edildikdən sonra Aparat və İşlər İdarəsi 2012-ci ildə aşağıdakı tərkibdə fəaliyyət göstərmişdir :

## Ali Məhkəmənin Aparatı

1. Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
2. Beynəlxalq əlaqələr şöbəsi
3. Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi
4. Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi
5. Dövlət qulluğu və kadr məsələləri sektoru
6. İcra məmurları sektoru
7. Ali Məhkəmə Plenumunun katibliyi
8. Mülki kollegiyanın katibliyi
9. Inzibati-İqtisadi kollegiyasının katibliyi
10. Cinayət kollegiyasının katibliyi
11. Hərbi kollegiyanın katiblyi

### Ali Məhkəmənin İşlər İdarəsi

1. İnformasiya Texnologiyaları şöbəsi
2. Maliyyə-Təsərrüfat şöbəsi

3. Ali Məhkəmənin Xatirə Muzeyi
4. Kitabxana
5. Arxiv
6. Ali Məhkəmənin mətbəəsi

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin iş planına uyğun olaraq Aparatın müvafiq şöbələri tərəfindən müəyyən işlər görülmüşdür.

Belə ki, Ali Məhkəmənin hakimlərinin iştirakı ilə Aparatın Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin əməkdaşları tərəfindən respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2010-2011-ci illərdə baxılmış "Tibbi xarakterli məcburi tədbirlərin tətbiqi, bu tədbirlərin tətbiqinin uzadılması, dəyişdirilməsi və ləğv edilməsi" ilə bağlı işlər üzrə, "Bank-kredit işləri üzrə ipoteka haqqında" Azərbaycan Respublikası Qanunun tətbiqi təcrübəsi və 2010-2011-ci illərdə baxılmış "Qaçaqmalçılıq işləri üzrə məhkəmə təcrübəsi öyrənilərək ümumiləşdirilmiş, "Məhkəmələr tərəfindən tibbi xarakterli məcburi tədbirlərin tətbiqi təcrübəsi haqqında" ümumiləşdirmənin nəticəsi bu növ işlər üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə Ali Məhkəmənin Plenum iclasında müzakirə edilmiş, qəbul edilmiş qərar respublikanın birinci instansiya və Apellyasiya Məhkəmələrinə göndərilmişdir.

Digər ümumiləşdirmələrin nəticəsinin müzakirəsi hazırda gündəmdədir.

Aparatın Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsinin əməkdaşları tərəfindən analitik işlərin həyata keçirilməsi, qanunların və digər normativ aktların, normativ xarakterli aktların, o cümlədən onlara edilmiş əlavə və dəyişikliklərin sistemləşdirilməsi və kodifikasiyası təmin edilmiş, Ali Məhkəməyə daxil olmuş qanunvericilik aktlarının və onların layihələrinin öyrənilməsi həyata keçirilmiş, bu layihələrlə əlaqədar rəy və təkliflər müvafiq surətdə sorğu edən təşkilatlara göndərilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinə **20746** ərizə şikayət və müraciət daxil omuşdur ki, bu da 2011-ci ildə Ali Məhkəməyə daxil olmuş ərizə, şikayət və müraciətlərin ümumi sayı ilə

müqayisədə **3673** (15**%**), o cümlədən, əlavə kassasiya şikayətləri ilə bağlı müraciətlərin sayı **626 (23,3%)** azalmışdır.

Vətəndaşların ərizə, şikayət və digər müraciətlərinə vaxtında baxılması, onlara hüquqi cəhətdən əsaslı və düzgün cavab verilməsi daim diqqət mərkəzində olmuşdur.

Bu müddətdə Ali Məhkəməyə daxil olmuş ərizə, şikayət və digər müraciətlərdən **6031-i (29%)** baxılmaq üçün Ali Məhkəmənin müvafiq kollegiyalarına verilmiş, **12664 (61%)** müraciətə isə Ali Məhkəmənin rəhbərliyi və Aparatı tərəfindən baxılmışdır.

Bundan əlavə Ali Məhkəmədə vətəndaşların qəbulu hər həftə təmin edilmiş, məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin sədri tərəfindən **87 nəfər**, kollegiya sədrləri tərəfindən isə **97 nəfər** qəbul edilərək, onlara müraciət etdikləri məsələlər üzrə müvafiq izahlar verilmişdir.

# Ali Məhkəmənin 2012-ci ildə beynəlxalq əlaqələri

**Ali Məhkəmənin Beynəlxalq hüquq təşkilatları ilə əlaqələri 2012-ci ildə daha da genişlənmişdir.**

**Dünyanın mütərəqqi ölkələrinin, xususilə Avropa İttifaqının üzvü olan ölkələrin məhkəmə hüquq təşkilatları ilə Bakıda görüşlər keçirilmiş, həmçinin bir sıra ölkələrə qarşılıqlı səfərlər və təcrübə mübadilələri təşkil edilmişdir.**

**Bütün bunlar Ali Məhkəmənin fəaliyyətinin daha da müasirləşməsinə və təkmilləşməsinə xidmət etmişdir.**

**Yanvarın 27-də** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Fransanın Strasburq şəhərində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 2012-ci il üzrə məhkəmə ilinin açılışına həsr olunmuş təntənəli iclasda və "Milli məhkəmələrin İnsan Hüquqları üzrə Avropa Konvensiyasının həyata keçirilməsi sistemində daha fəal iştirakının təmin edilməsi yolları" mövzusunda keçirilmiş seminarda iştirak etmişdir.

**Yanvarın 31-də** ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Avropa Şurasına Üzv Dövlətlər Tərəfindən Öhdəliklərin yerinə Yetirilməsi üzrə Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Cozef Debono Qrex, Pedro Aqramunt Fond de Mora və Monitorinq Komitəsinin katibi xanım Aqnieska Naçilio Ali Məhkəmənin Mülki Kollegiyasının sədri Şəlalə Məmmədova ilə görüşmüşlər.

**Fevralın 27-də** ölkəmizdə səfərdə olan Dünya Bankının Məhkəmə sisteminin müasirləşdirilməsi layihəsinin rəhbəri Amitabha Mukherjeenin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Ali Məhkəmənin sədri müasir informasiya texnologiyalarının tətbiqindən, xüsusilə, Ali Məhkəmədə elektron kargüzarlıq və sənəd dövriyyəsi, proseslərin idarəetmə sisteminin tətbiqindən və proseslər barədə məlumatların elektron informasiya köşkü vasitəsi ilə alınmasının əhəmiyyətindən danışmışdır.

**Martın 13-də** ölkəmizdə səfərdə olan Tanja Santuccinin rəhbərlik etdiyi BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının Azərbaycan Respublikası tərəfindən implementasiyası üzrə dəyərləndirmə missiyasının nümayəndə heyəti Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri Şahin Yusifovla görüşmüşdür.

**Aprelin 3-də** Avropa Şurası Baş Katibliyinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarlarının İcrası Departamentinin şöbə müdiri cənab Özgür Derman və sektor müdiri xanım İren Kitsu-Milonas Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasının sədri Hikmət Mirzəyevlə görüşmüşdülər.

**Aprelin 18-20-də** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Böyük Britaniyanın Avropa Şurası Nazirlər Komitəsində sədrliyi çərçivəsində İngiltərənin Brayton şəhərində Avropa Məhkəməsinin fəaliyyətinə həsr olunmuş yüksək səviyyəli konfransda iştirak etmişdir.

**Aprelin 27-də** ölkəmizdə səfərdə olan Avropa Şurasının və Avropa İttifaqının " Pis rəftara və cəzasızlığa qarşı mübarizənin gücləndirilməsi " birgə Proqramının uzunmüddətli məsləhətçisi, beynəlxalq ekspert cənab Erik Şvanidze Ali Məhkəmənin Cinayət Kollegiyanın sədri Şahin Yusifovla görüşmüşdür.

**Aprelin 28-də** "Gənc Hüquqşünasların Beynəlxalq Bakı Forumu" çərçivəsində Ali Məhkəmədə "Rəmzi Məhkəmə Prosesi" müsabiqəsinin Final mərhələsi keçirilmişdir.

Tədbirdə Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının rəhbər şəxsləri də daxil olmaqla Avropa ölkələrindən 30-a qədər nümayəndə, habelə Azərbaycan universitetlərinin hüquq fakültələrinin tələbələri iştirak etmişdir.

**Mayın 4-dən 6-dək** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin başçılıq etdiyi nümayəndə heyəti Qətərin paytaxtı Doha şəhərində "Dəyişikliklər dövründə qanunun aliliyinə qlobal etimadlılıq" mövzusuna həsr olunmuş beynəlxalq hüquq forumunda iştirak etmişdir.

**Mayın 14-də** ölkəmizdə səfərdə olan Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş katibi Derk Kuipers Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Görüşdə qeyd edilmişdir ki, Beynəlxalq Prokurorlar Assosiasıyası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun transmilli cinayətkarlığa, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə, çirkli pulların yuyulmasına və saxtakarlıq kimi cinayət növlərinə qarşı birgə mübarizə aparması zəruridir və bu mübarizə gələcəkdə daha səmərəli nəticələr verəcəkdir.

**Mayın 18-19-da** Almaniya Federal Ədliyyə Nazirliyi Almaniya Beynəlxalq Hüququ Əməkdaşlığı Fondunun təşkilatçılığı eləcə də Beynəlxalq Cinayət Hüququ üzrə Maks Plank İnstitutu və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) dəstəyi ilə Gürcüstanın Tbilisi şəhərində “Müstəqillik qazanıldıqdan sonra Cənubi Qafqaz ölkələrində cinayət və cinayət prosessual hüququ” mövzusunda keçirilmiş Beynəlxalq Konfransda Ali Məhkəmənin hakimləri Əli Seyfəliyev və İmran Hacıqayıbov iştirak etmişdilər.

**Mayın 21-dən 24-dək** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti Xorvatiya Respublikası Ali Məhkəməsinin sədri Branko Hrvatinin dəvəti ilə bu ölkədə səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin başçılıq etdiyi nümayəndə heyətini Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviç qəbul etmişdir.

**Mayın 31-də** Ali Məhkəmədə ölkəmizdə səfərdə olan Avropa Şurası Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa komissiyasının Məhkəmə Sistemlərinin Qiymətləndirilməsinə dair Daimi İşçi Qrupu ilə məhkəmə statistikasına dair məlumatların toplanması və ümumiləşdirilməsi təcrübəsinə həsr olunmuş görüş keçirilmişdir.

**İyunun 12-də** ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Avropa Şurasına Üzv Dövlətlər Tərəfindən Öhdəliklərin yerinə Yetirilməsi üzrə Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Cozef Debono Qrex, Pedro Aqramunt Fond de Mora və Monitorinq Komitəsi katibliyi

rəhbərinin müavini xanım Aqnieşka Naçilo Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

**İyunun 22-də** Özbəkistan Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Şerzod Fayziyev Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**İyulun 2-də** Bolqarıstan Respublikası Konstitusiya Məhkəməsinin sədri Yevqeni Tançevin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**İyulun 6-7-də** Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ), Venesiya Komissiyası və Gürcüstan Konstitusiya Məhkəməsinin təşkilatçılığı ilə Batumi şəhərində keçirilmiş "Bərabərlik hüququ: konstitusion müdafiənin tətbiqi sferası" adlı Beynəlxalq Konfransda Ali Məhkəmənin hakimi İmran Hacıqayıbov iştirak etmişdir.

**İyulun 9-dan 15-dək** Ali Məhkəmənin hakimləri Zakir Quliyev və İlqar DadaşovAlmaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) təşkilatçılığı ilə Almaniyanın (Manhaym, Leyptsik və Berlin şəhərləri) İnzibati Məhkəmələrində iş təcrübəsi ilə tanışlıq səfərində olmuşlar.

**Sentyabrın 27-28-də** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin başçılıq etdiyi nümayəndə heyəti 2012-ci il "Ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyəti: müasir texnologiyalar və yanaşmalar" mövzusunda keçirilən ikinci Beynəlxalq Forumda iştirak etmək üçün Belarus Respublikasının paytaxtı Minsk şəhərində səfərdə olmuşdur.

Minskdə Azərbaycan Respublikası Ali Məhkəməsi və Belarus Respublikası Ali Təsərrüfat Məhkəməsi arasında əməkdaşlıq haqqında RAZILAŞMA imzalanmışdır.

**Oktyabrın 18-19-da** Qırğızıstan Respublikasının Bişkek şəhərində keçirilmiş "Azlıqların hüquq-mühafizə orqanlarında səmərəli iştirakı: Həssas polis və məhkəmənin

yaradılması" adlı ekspert seminarında Ali Məhkəmənin hakimi İmran Hacıqayıbov iştirak etmişdir.

**Noyabrın 6-da** ölkəmizdə səfərdə olan Koreya Respublikası Ali Məhkəməsinin hakimi Li Sang Hun Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə məhkəmə hüquq sistemi ilə bağlı tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Noyabrın 11-dən 15-dək** Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsinin sədri Lazar Gruevin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin dəvəti ilə Azərbaycana işgüzar səfər etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsi və Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsi arasında Əməkdaşlıq haqqında Protokol imzalanmışdır.

**Noyabrın 21-də** Azərbaycan Respublikası Ali Məhkəməsində ATƏT-in Bakı ofisinin rəhbəri səfir Koray Tarqay Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilən tədbirlərlə və məhkəmə hüquq təcrübəsi ilə bağlı qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

**Noyabrın 23-də** Azərbaycanda "İnzibati icraat haqqında Qanunun və İnzibati Prosessual Məcəllənin tətbiqi ilə bağlı təşkil olunan seminarlarda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Almaniyanın Baden-Vürttemberq Yuxarı İnzibati Məhkəməsinin sədri Folker Ellenberqerin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Almaniyalı hakimlər Ali Məhkəmənin İnzibati İqtisad Kollegiyasının hakimlərinin iştirakı ilə seminar keçirmişlər.

**Noyabrın 27-də** ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Avropa Şurasına Üzv Dövlətlər Tərəfindən Öhdəliklərin yerinə

Yetirilməsi üzrə Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Cozef Debono Qrex, Pedro Aqramunt Fond de Mora və Monitorinq Komitəsi katibliyi rəhbərinin müavini xanım Aqnieska Naçilio Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

**Dekabrın 13-14-də** Çexiya Respublikasının Praqa şəhərində CEELİ İnstitutu tərəfindən təşkil olunmuş "Məhkəmələrin effektivliyi və hakimlərin müstəqilliyi" mövzusunda keçirilmiş kofransda Ali Məhkəmənin hakimləri Qəhrəman Allahverdiyev və Rəşadət Ağayev iştirak etmişdilər.

**Dekabrın 14-də** Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Alper Coşkun Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

# Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsi sədrinin Azərbaycana işgüzar səfəri



Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsinin sədri Lazar Gruevin başçılıq etdiyi nümayəndə heyəti 2012-ci il noyabrın 11-ində axşam Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin dəvəti ilə Azərbaycana işgüzar səfərə gəlmişdir.

Noyabrın 12-sində səhər Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyətinin üzvləri əvvəlcə Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdilər, ümummilli liderin xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoydular. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül düzdülər.

Bolqarıstanlı qonaqlar Şəhidlər xiyabanınıda oldular. Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda canlarından keçmiş qəhrəman övladların xatirəsi ehtiramla yad edildi, onların məzarları üstünə gül-çiçək düzüldü. Qonaqlar "Əbədi məşəl" abidəsinin önünə əklil qoydular.

Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyətinin üzvləri Ali Məhkəmənin yüksək statusuna uyğun inzibati binasını gəzmiş, hakimlərin iş şəraiti ilə tanış olmuş, məhkəmə tarixi muzeyinə baxmışlar. Ali Kassasiya Məhkəməsinin sədri muzeyin fəxri qonaqlar kitabına öz ürək sözlərini yazmışdır.

Həmin gün Azərbaycan Respublikası Ali Məhkəməsində Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsinin sədri Lazar Gruevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Görüşdə Ali Məhkəmənin sədri Ramiz Rzayev Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsinin sədri Lazar Gruevin başçılıq etdiyi nümayəndə heyətini Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirmiş, Azərbaycan və bolqar xalqları arasında vahid ideya birliyi və həmrəyliyi ilə bağlı çoxsaylı nümunələrin mövcud olduğunu qeyd

etmişdir. Bolqarıstan və Azərbaycan Prezidentlərinin qarşılıqlı səfərlərinin, iki ölkə arasında bağlanmış iqtisadi müqavilələrin, mədəni sazişlərin əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsi üçün böyük imkanlar açdığını diqqətə çatdırmışdır. Ali Məhkəmənin sədri Azərbaycanla dost Bolqarıstanın məhkəmə hüquq sistemləri arasında əlaqələrinin yeni mərhələyə qədəm qoyduğunu, bu əlaqələrin uğurla inkişaf edərək nəinki ikitərəfli, eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində genişlənəcəyini vurğulamışdır.

Ali Məhkəmənin sədri respublikamızda məhkəmə hüquq sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini diqqətə çatdıraraq bu işin Ali Məhkəmənin yeni strukturunda və fəaliyyətində öz əksini tapması barədə qonaqlara məlumat vermişdir. Ali Məhkəmənin sədri Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin məhkəmə orqanları arasında əməkdaşlığın daha da inkişaf etməsinə xidmət edəcəyinə əminliyini ifadə etmişdir.

Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsi sədri Lazar Gruev Bolqarıstanda Ali Kassasiya Məhkəməsinin fəaliyyət dairəsi barədə danışmış, iki ölkə arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını bildirmişdir. Qeyd etmişdir ki, bu əməkdaşlıq bundan sonra da davam etdiriləcək.

Görüşdə hüquqi dövlət qurulucuğu sahəsində aparılan islahatlar və məhkəmə hüquq təcrübəsi ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsi və Bolqarıstan Respublikası Ali Kassasiya Məhkəməsi arasında Əməkdaşlıq haqqında Protokol imzalanmışdır.



# Ali Məhkəmənin İnternet səhifəsi




Ali Məhkəmənin İnternet səhifəsi üç dildə – azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdir.

Ali Məhkəmənin fəaliyyətində şəffaflığın və səmərəliliyin artırılması üçün tərtib edilən internet səhifəsi www.supremecourt.gov.az ünvanında yerləşir.

Ali Məhkəmənin internet səhifəsi 10 bölmədən ibarətdir. Burada Respublikamızın məhkəmə sistemi, Ali Məhkəmənin strukturu, Plenumun fəaliyyəti, Qərarları (müvafiq məhkəmə kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar), hakimlərin intizam məsuliyyətinə cəlb olunması barədə məlumat, işlərin təyinatı və baxılmış işlərin nəticələri, məhkəmə aidiyyəti, vətəndaşların, ərizə və müraciətlərin qəbulu, arayışlar və mətbuat xidməti haqqında məlumat almaq olar.

Bundan başqa, internet səhifəsində Ali Məhkəmənin rəhbərliyinin və hakimlərinin xarici dövlətlərə səfərləri, ölkədaxili tədbirlərdə iştirakı, habelə, Ali Məhkəmənin təşkil etdiyi tədbirlər haqqında məlumatlarla ətraflı tanış olmaq mümkündür.

Ali Məhkəmənin İnternet səhifəsində mövcud “E-Xidmətlər” bölməsində dəyişikliklər edilmişdir. Bölmədə məhkəməyə daxil olmuş işlər barədə operativ məlumatlar, təyin olunmuş işlər barədə gündəlik və həftəlik məlumatlar dərc olunur, məhkəmə qərarlarının axtarışı üçün xüsusi interfeys yaradılmış, “online müraciət” və qəbul bəndləri əlavə edilmiş, həmçinin hər bənd üzrə istifadəçi üçün təlimat dərc edilmişdir.




2012-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə daxil olan adamların sayı 37333, daxil olmaların sayi 59864, müraciətlərin sayı isə 285598 dəfə olmuşdur ki, bu da ötən ilin uyğun dövrünə nisbətən orta hesabla 1.48, 1.48 və 1.16 dəfə artıqdır(Qrafik 1).

2012-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə dünyanın 100-dən çox ölkəsindən 59864 dəfə daxil olunmuşdur ki, bunların 44452-sı Azərbaycandan, 2908-i Rusiyadan, 1435-i ABŞ-dan, 1228-i Ermənistandan, 815-i Ukraynadan, 300-ü Türkiyədən, 281-i Almaniyadan, 211-i Belorusdan, 225-i İngiltərədən, 164-ü Qazaxıstandan, 125-i Gürcüstandan, 108-i Fransadan və 7612-sı isə digər ölkələrdən olmuşdur.

Qrafiklərdə müraciətlərin təkrarlanma və davamlılığa görə paylanması nümayiş edilir. İkinci qrafikdən göründüyü kimi bütün müraciətlərin 42.43%-i bir, 10.82%-i iki, 6.76%-i üç, 4.78%-i dörd, 4.16%-i beş və 31.05%-i altı dəfə və daha çox təkrar olmuşdur.

Üçüncü qrafikdə müraciətlərin davamlılığı nümayiş etdirilir. Buradan göründüyü kimi bütün müraciətlərin 52.97%-i 10 saniyəyə qədər, 6.66%-i 11-30 saniyə, 5.88%-i 31-60 saniyə, 11.23%-i 1-3 dəqiqə, 12.02%-i 3-10 dəqiqə, 9.06%-i 10-30 dəqiqə 2.17%-i isə 30 dəqiqədən artıq davam etmişdir.



## Ali Məhkəmənin bülleteni

Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi nəşri olan bülleten 2003-cü ilin yanvar ayından çap olunur.

İldə dörd dəfə nəşr olunan bülletendə məhkəmə fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanun və qərarlar, Ali Məhkəmə Plenumunun qərarları, Ali Məhkəmənin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlar, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair Ali Məhkəmədə aparılan ümumiləşdirilmənin nəticələri, icmal məktubları, Ali Məhkəmənin beynəlxalq əlaqələri, Ali Məhkəmə sədrinin görüşləri və məhkəmə fəaliyyəti ilə bağlı digər maraqlı materiallar dərc edilir.

2012-ci ildə Ali Məhkəmənin dörd bülleteni çap olunmuşdur.

Həmin bülletenlərdə əsasən Cinayət işləri və Mülki işlər üzrə məhkəmə təcrübəsi ilə bağlı qanunvericiliyin bəzi maddələrinin şərhinə həsr olunmuş analitik yazılar, apellyasiya instansiyası məhkəmələrinin cinayət və mülki işlər üzrə bəzi qərarlarının ləğv edilməsinə və dəyişdirilməsinə səbəb olan halları özündə əks etdirən hüquqi məqalələr, beynəlxalq əlaqələrə və görüşlərə həsr olunmuş məlumatlar, Ali Məhkəmədə 2012-ci ildə keçirilmiş tədbirlər Ali Məhkəmənin Plenumunda müzakirə olunan məsələlər və qəbul edilən qərarlar, aktuallıq kəsb edən digər tədbirlər öz əksini tapmışdır.

Bundan əlavə 2012-ci ildə Ali Məhkəmədə keçirilmiş “Hakimlərin fərdi və peşə davranışları” məsələlərinə həsr olunmuş Beynəlxalq Konfrans materiallarını özündə əks etdirən bülletenin xüsusi buraxılışı çap olunmuşdur.

Ali Məhkəmənin bülletenini abunə yazılmaqla əldə etmək olar. Rəngli formada buraxılışı ilə əlaqədar bülletenin illik abunə haqqı **40 manatdır.**

Abunə haqqı aşağıda gösərilən hesaba ödənilməlidir.

VÖEN 3100693732, H/h AZ47UBAZ01009655541040AZN001 Unibank KB-də, VÖEN 1300017201, kod 505754, m/h AZ46NABZ01350100000000015944, SWİFT BİK: UBAZAZ22.

## Ali Məhkəmə fəaliyyətinin maliyyələşdirilməsi

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi və onun maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

Ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun həyata keçirilməsi üçün ölkə Prezidenti tərəfindən məhkəmələrə hər cür şərait yaradılmış və bu proses indi də davam etdirilir.

Məhz bunun nəticəsidir ki, dövlət büdcəsinin xərclər hissəsində məhkəmə hakimiyyətinin, o cümlədən, Azərbaycan Respublikası Ali Məhkəməsinin saxlanılması xərclərinin həcmi ilbəil artırılır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ali Məhkəməsi hakimlərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 19 oktyabr 2010-cu il tarixli sərəncamı bu sahəyə diqqətin əyani nəticəsidir.

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi üçün 2012-ci ildə ayrılan illik büdcə vəsaiti (dürüstləşmə ilə) **5900095** manat, o cümlədən, əmək haqqı fondu **3932063** manat müəyyən edildiyi halda, 2013-cü ildə Ali Məhkəməyə ayrılan illik büdcə vəsaiti **6127520** manat müəyyən edilmişdir ki, bu da 2012-ci ildə ayrılan büdcə vəsaitindən **227425** manat çoxdur.

## Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası

Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə birbaşa əlaqəsinin təmin edilməsi, lazım gəldikdə Ali Məhkəmədə baxılmış mülki və cinayət işləri haqqında onlara operativ qaydada məlumat vermək Ali Məhkəmənin hakimləri Mirzəliyev Əsəd Abdulla oğluna və Kərimov Fərhad Abdulkərim oğluna həvalə olunmuşdur.

Mülki işlərlə əlaqədar məlumat almaq üçün hakim Əsəd Mirzəliyevlə **493-09-91** nömrəli, cinayət işləri ilə əlaqədar isə hakim Fərhad Kərimovla **493-22-03** nömrəli telefonla birbaşa əlaqə saxlamaq olar.

Bundan əlavə, həmin hakimlərlə Ali Məhkəmənin contact@ supremecourt. gov.az e-mail ünvanı vasitəsilə də əlaqə saxlamaq olar.

Ali Məhkəmədə keçirilən tədbirlər haqqında müvafiq məlumatları **493-18-37** nömrəli telefonla Ali Məhkəmənin mətbuat katibi Məmmədli Allahverdi Məhərrəm oğlundan almaq olar.

*Məlumat kitabçası Ali Məhkəmənin
əməkdaşları tərəfindən
hazırlanmışdır.*

*Tiraj – 200 nüsxə*